# Qazaxlar

Xəzərlərin nəsillərini, həm də Bizans və Rus tarixçiləri Qazax, yaxud Kasoq, və ya Kozaklar adlandırılan Xəzərlərin ərazisini lap qədimdən tutan Qazaxlar (Kasoqlar) hesab edirlər.

Sonralar Qazaxlar Qafqas dağlarının güney yamacları boyu ərazini tutmuşlar. Azərbaycanın Qazax qəzasında isə onlar 1072 – 1089-cu illərdə Gürcüstan hakimi II Georgi çağında yurd salmışlar. Georgi düşmənləri ilə savaşlarda ona göstərdikləri yardıma görə, Qazaxları çağırmış və o vaxtlar Gürcüstanın tərkibinə daxil olan Qazax və qismən də Şəmşəddində yerləşdirmişdir.

Bu ad «qaçaq» Türk sözündən yaranmış və sonralar Qazax biçiminə düşmüşdür. Qaçaq isə öz tayfasını və ocağını atıb başqa ölkələrə çıxıb gedən adama deyilirdi.

Hal-hazırda Qazaxların əksəriyyəti Qazax qəzasında yaşasa da, bütün Azərbaycana yayılmışlar. Qazaxlar Azərbaycanda indi bir neçə tirəyə bölünmüşlər və onlardan başlıcaları Qazax, Şınıx, Salahlı və başqalarıdır. Onlar aşağıdakı qəza və obalarda yerləşirlər:

Qazax qəzasında — Qazax şəhəri, Qazaxbəyli, Qazaxlı, Şıxlı (2), Daş Salahlı, Salah, Salahlı (2);

Gəncə qəzasında — (Şəmşəddin), Qırmızı Qazaxlar, Qazaxlı (2), Şıxlar, Salahlı (2);

Cavanşir qəzasında — Qazax Rəhimlər, Qazaxlar, Yeqarçı Qazaxlar;

Cəbrayıl qəzasında — Qazaxlar, Şıxlı;

Quba qəzasında — Qazaxlı, Şıxlı, Şıxlı oba, Salah oba;

Göyçay qəzasında — Qoyunlu Şıxlı, Molla Şıxlı, Umudlu Şıxlı;

Lənkəran qəzasında — Salahlı;

Ağdaş qəzasında — Salahlı (2).

---

**Məhəmmədhəsən bəy Vəlili-Baharlı — *“Azərbaycan” (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**